

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

*Qəzet 1921-ci ildən çıxır*

Sayı: 57 (23.469)

*10 aprel 2020-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak ediblər.

İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Bakı Tekstil Fabriki" MMC-nin rəhbəri Səkinə Babayeva dövlətimizin başçısına və birinci xanıma müəssisə haqqında məlumat veriblər.

Müəssisə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan xalqına müraciət edib:

– Bu gün ölkəmizdə tibbi maska istehsalı başlayır. Bu, çox əlamətdar hadisədir. Çünki indi dünyanın bir çox ölkələrində tibbi maska çatışmazlığı var, o cümlədən Azərbaycanda və biz bu sahədə daim idxaldan asılı idik. Amma indiki şəraiti nəzərə alaraq qısa müddətdə, cəmi iki həftə ərzində yerli istehsal təşkil edildi. Burada sahibkarların böyük rolu vardır, eyni zamanda, Azərbaycan dövləti də öz maliyyə dəstəyini göstərmişdir. Beləliklə, qısa müddət ərzində yeni müasir istehsalat sahəsi yaradılmışdır və bu, bizə imkan verəcək ki, özümüzü tibbi maskalarla böyük dərəcədə təmin edək. Bütün Azərbaycan vətəndaşlarına bir daha çağırış edib demək istəyirəm: Məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək! Biz birlikdə güclüyük!



## R.A.Nəbiyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Ərazi idarəetmə orqanları, deputatlarla və komitələrlə iş şöbəsinin müdiri təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ramil Aslan oğlu Nəbiyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Ərazi idarəetmə orqanları, deputatlarla və komitələrlə iş şöbəsinin müdiri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 9 aprel 2020-ci il*

## Naxçıvanda yeni meyvə bağları salınıb





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Ekoloji məsələlərə diqqət, münasibət, eyni zamanda ölkənin ümumi siyasətinin, ümumi mədəniyyətinin təzahürüdür... Təbiət, ətraf mühit daimi sərvətdir... Bizim vəzifəmiz ondan ibarətdir ki, bunu qoruyaq. Özümüz üçün, gələcək nəsillər üçün, ölkəmizin yaşaması üçün qoruyaq".***



Müasir dövrdə insanın təbiətlə qarşılıqlı əlaqəsi və ekoloji məsələlərə münasibəti cəmiyyətin inkişaf səviyyəsini göstərir. Muxtar respublikada bu amil diqqətdə saxlanılır. Hər il yüz hektarlarla meyvə bağları və yaşıllıq zolaqları salınır, ətraf mühitə qayğı göstərilir. İməciliklər zamanı yeni ağacların əkilməsi, təmizlik və səliqə-sahman işlərinin görülməsi isə ekoloji tarazlıqla yanaşı, həm də insan sağlamlığının qorunması deməkdir. Çünki insan sağlamlığının ən mühüm şərtlərindən biri də yaşıllıqların sahəsinin genişləndirilməsidir. Görülən işlərin nəticəsidir ki, hazırda muxtar respublika ərazisinin 20 faizə yaxını yaşıllıqlardan ibarətdir.

Aprelin 4-də muxtar respublikada iməcilik keçirilmiş, yeni meyvə bağları və yaşıllıqlar salınmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Duzdağ Fizioterapiya Mərkəzinə gedən yolun kənarında iməcilik keçirərək 2 hektar sahədə yeni meyvə bağı salmışlar. İməcilik iştirakçıları əraziyə mindən artıq meyvə və üzüm tingləri əkmiş, təmizlik işləri görmüşlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, meyvə tingləri əkmişdir.

Bildirilmişdir ki, bu ilin yazında muxtar respublikada 262 hektar sahədə meyvə bağlarının salınması, 109 mindən artıq müxtəlif meyvə tinglərinin əkilməsi nəzərdə tutulmuşdur. Bu günə qədər 65 hektar sahədə əkin aparılmışdır.

Ali Məclisin Sədri yaz əkini mövsümündə meyvə bağlarının salınmasının davam etdirilməsi və yaşıllıqlara qulluq göstərilməsi barədə tapşırıqlar vermişdir.

Həmin gün muxtar respublikada keçirilən iməciliklərdə 17 hektardan artıq yeni meyvə bağı və yaşıllıq zolaqları salınmış, 11 min 500 ting əkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Yeni torpaq sahələri əkin dövriyyəsinə qatılır

### *Muxtar respublikada yeni nasos stansiyaları tikilir, təzyiqli boru xətləri çəkilir*

Bu gün muxtar respublikada iqtisadiyyatın digər sahələri kimi, meliorasiya və irriqasiya sistemlərinin yenidən qurulması, müasir hidrotexniki qurğuların tikilməsi də diqqətdə saxlanılır. Torpaqların su təminatının yaxşılaşdırılması kənd təsərrüfatının inkişafına, ən əsası isə əkinçilikdə yüksək məhsuldarlığın əldə olunmasına imkan verir. Nəticədə, torpaq mülkiyyətçiləri, ailə təsərrüfatları və fermerlər bol məhsul istehsal edərək ərzaq təhlükəsizliyinin təmin olunmasında yaxından iştirak edir, bazarın tələbatı yerli istehsal hesabına ödənilir. Həyata keçirilən tədbirlərin davamı kimi, muxtar respublikada yeni nasos stansiyaları tikiləcək, təzyiqli boru xətləri çəkiləcəkdir.

Aprelin 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov nasos stansiyalarının layihəsinə baxmış, həyata keçiriləcək tikinti işləri ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, Araz Su Anbarının yaxınlığında eni 8, uzunluğu 100 metr olan körpü tikiləcək və körpünün üzərində biri ehtiyat olmaqla, 2 nasos quraşdırılacaqdır. Hər birinin gücü 1000 kilovat-saat olan nasosların su sərfi saniyədə 1500 litr olacaqdır. Nasoslar suyu uzunluğu 2 kilometr, diametri 1000 millimetr olan təzyiqli boru xətti ilə ikinci nasos stansiyasına vuracaqdır. İkinci nasos stansiyası üçün ərazidə yeni bina və suqəbuledici hovuz inşa olunacaq, hər birinin gücü saniyədə 850 litr olan 3 nasos quraşdırılacaqdır. Nasoslardan biri ehtiyat üçün nəzərdə tutulub. Bu nasos stansiyasından su yeni çəkiləcək 3,8 kilometrlik təzyiqli boru xətti ilə həcmi 4 min kubmetr olan 6 çıxışlı paylayıcı hovuza vurulacaq və öz axını ilə torpaq sahələrinə veriləcəkdir. Yeni nasos stansiyaları istifadəyə verildikdən sonra Kəngərli rayonunda və Naxçıvan şəhərində 14 min hektar yeni torpaq sahəsi əkin

*Ardı 2-ci səhifədə*






dövriyyəsinə qatılacaq, 5 min hektar torpaq sahəsinin isə su təminatı yaxşılaşdırılacaqdır.

Ali Məclisin Sədri demişdir ki, bu layihənin həyata keçirilməsi yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması və əkilən torpaqların su təminatının yaxşılaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Qurulacaq müasir nasos stansiyalarının gücünün çox olması və elektrik enerjisini az işlətməsi ondan səmərəli istifadə etməyə imkan verəcəkdir. Muxtar respublikada 62 min hektar suvarılan torpaq sahəsi vardır. Qarşıda duran vəzifə əkinəyararlı torpaqların su təminatını yaxşılaşdırmaq və yeni torpaq sahələrini əkin dövriyyəsinə qatmaqdan ibarətdir. Yeni nasos stansiyalarının qurulması bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Ali Məclisin Sədri tikinti işlərinə başlanılması və keyfiyyətlə aparılması, nasos stansiyalarının nəzərdə tutulan vaxtda istismara verilməsi və əkinəyararlı torpaqlardan səmərəli istifadə ilə bağlı tapşırıqlar vermişdir.

* * *

Bu gün muxtar respublikada mütərəqqi suvarma şəbəkələrinin qurulması ilə yanaşı, həm də yeni nasos stansiyalarının tikilməsi mövcud hidroresurslardan səmərəli istifadə edilməsinə və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına imkan verir. Yüz illərdir, əkilməyən torpaqlardan bol məhsul götürülür. Yeni nasos stansiyalarının tikilməsi və təzyiqli boru xətlərinin çəkilməsi də bu baxımdan mühüm iqtisadi əhəmiyyətə malikdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda "Bərəkət Toxumçuluq" kompleksi istifadəyə verilmişdir

Bu gün muxtar respublikada kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi və ixrac imkanlarının artırılması sahəsində ardıcıl tədbirlər görülür. Müasir meliorasiya və irriqasiya sistemləri qurulur, yeni torpaqlar əkin dövriyyəsinə qatılır, torpaq mülkiyyətçiləri texnika və gübrə ilə təmin edilirlər. Xüsusilə kənd təsərrüfatının strateji əhəmiyyətli istehsal sahələrindən olan toxumçuluğun inkişafı diqqətdə saxlanılır. Hazırda muxtar respublikada toxuma olan tələbatı ödəmək və toxumluq məhsulların istehsalını artırmaq sahəsində ardıcıl tədbirlər görülür, yeni toxumçuluq təsərrüfatları yaradılır, iqlim və torpaq xüsusiyyətlərinə uyğun məhsuldar toxum sortları yetişdirilir.

Aprelin 9-da Naxçıvan şəhərində "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti üçün yeni kompleks istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev çıxış edərək demişdir ki, muxtar respublikada aqrar sahəyə göstərilən dövlət dəstəyi, innovativ texnologiyaların tətbiqi və elmi əsaslara söykənən layihələrin icrası kənd təsərrüfatının



bütün sahələri üzrə məhsuldarlığı artırmış, əhalinin tələbatının yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir. Əkinçiliyin inkişafında keyfiyyətli toxum təminatı əsas diqqət yetirilən məsələlərdəndir. Güclü maddi-texniki bazaya və geniş əkinəyararlı torpaq sahəsinə malik olan "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti muxtar respublikanın torpaq mülkiyyətçilərini məhsuldar və keyfiyyətli toxumlarla təmin edir. Ötən il təsərrüfatda 1067 ton toxum istehsal edilərək satışa verilmişdir. 2020-ci ilin məhsulu üçün 1300 hektar sahədə payızlıq taxıl əkini aparılmışdır. Yeni kompleksin istifadəyə verilməsi bu sahədə fəaliyyətin daha səmərəli təşkilinə imkan verəcəkdir. Elşad Əliyev kənd təsərrüfatının inkişafına göstərdiyi hərtərəfli qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

"Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin əməkdaşı Dərgah Fərəcov çıxış edərək demişdir ki, muxtar respublikada aqrar sahə, xüsusilə əkinçilik hərtərəfli inkişaf edir. Torpaq mülkiyyətçilərinin toxumla təminatında "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin mühüm rolu vardır. Toxumçuluq təsərrüfatında 60 nəfər işlə təmin olunmuşdur. Dərgah Fərəcov toxumçuluq təsərrüfatının kollektivi və yeni işlə təmin olunanlar adından Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, torpaq mülkiyyətçilərini, ailə təsərrüfatlarını və fermerləri keyfiyyətli toxumlarla təmin edəcəklərinə söz vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Bu gün ümummilli liderimiz Heydər Əliyevin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, ölkəmizdə sabitlik, inkişaf və rifah vardır. İnsanların yaşayış səviyyəsi yüksəldilir. Ölkəmizdə digər sahələrlə yanaşı, kənd təsərrüfatı da inkişaf etdirilir, ərzaq təhlükəsizliyi təmin olunur. Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da kənd təsərrüfatının inkişafı qarşıda duran əsas vəzifədir. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikada ərzaq təhlükəsizliyi təmin edilmişdir.

Ali Məclisin Sədri demişdir: Ərzaq təhlükəsizliyinin təmin olunması üçün, ilk növbədə, şərait yaradılmalı, torpaqlardan səmərəli istifadə olunmalı, texnika və toxum təminatı həyata keçirilməlidir. Görülən işlərin nəticəsində muxtar respublikada suvarılan torpaqların sahəsi 62 min hektara çatdırılmışdır. Bu torpaqlardan yüksəkkeyfiyyətli məhsul götürmək üçün keyfiyyətli toxumlara ehtiyac vardır. Ona görə də muxtar respublikada toxumçuluq inkişaf etdirilir. Hazırda toxum tələbatının 80 faizə yaxını yerli istehsal hesabına ödənilir. "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin istifadəyə verilməsi ilə muxtar respublikamızda toxuma olan tələbat tamamilə yerli istehsal hesabına ödəniləcəkdir. Təsərrüfatın istifadəsində 90-a yaxın texnika, 2 min hektara yaxın torpaq sahəsi, anbarlar, qarışıq yem istehsalı sahəsi və satış mərkəzi vardır. Bütün bunlar da təsərrüfatda keyfiyyətli və tələbata uyğun toxum sortlarının istehsalına və satışına, daxili tələbatın ödənilməsinə və gəlirlərin artmasına imkan verəcəkdir. "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti dövlət vəsaiti hesabına yaradılıb. Bundan sonra təsərrüfatın saxlanılması və inkişafı isə kollektivin üzərinə düşən vəzifədir.

Ali Məclisin Sədri demişdir: Dünyada hansı proseslərin baş verməsindən asılı olmayaraq, kənd təsərrüfatı mütləq inkişaf etdirilməlidir. Bu gün dünyada o ölkələr pandemiya ilə rahat mübarizə apara bilirlər ki, həmin ölkələrdə ərzaq təhlükəsizliyi təmin olunub. Kənd təsərrüfatı iqtisadiyyatın lokomotividir. Ona görə də kənd təsərrüfatı inkişaf etdirilməlidir ki, ölkədə digər sahələrin inkişafı da təmin olunsun. Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlər, kənd təsərrüfatının inkişafı qarşıdakı illərdə də məhsul bolluğu yaradacaqdır. Məqsəd ondan ibarətdir ki, kənd təsərrüfatı sahəsində əhalinin məşğulluğu təmin olunsun, məhsul istehsalı daha da artsın. Bunun üçünsə, şərait yaradılmalı, mütərəqqi suvarma üsulları tətbiq olunmalı, müasir texnikalar alınıb gətirilməli və yüksək keyfiyyətə malik məhsuldar toxumlardan istifadə olunmalıdır. Bu gün istifadəyə verilən "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti qeyd olunan tələblərə cavab verən toxumçuluq təsərrüfatıdır. Təsərrüfat müasir texnikalarla təmin olunub, kollektiv formalaşıb və əkin sahələrində mütərəqqi suvarma sistemləri qurulub.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında kollektivə uğurlar arzulamış, toxumçuluq təsərrüfatının qurulmasında əməyi olanlara təşəkkür etmişdir.

Məlumat verilmişdir ki, "Bərəkət Toxumçuluq" kompleksinə taxıl anbarı, qarışıq yem sexi, toxumların satış mərkəzi, tutumu 500 ton olan hazır məhsul anbarı, 2 min hektar əkin sahəsi, texnika və avadanlıqların saxlanılması üçün qaraj, eləcə də təmiri sexi daxildir. 1924 kvadratmetr sahəni əhatə edən taxıl anbarında bütün texniki tələblər nəzərə alınmışdır. Burada ümumi tutumu





24 min ton olan 48 bunker vardır. Hər birinin tutumu 500 ton olan bunkerlər taxılın

*Ardı 3-cü səhifədə*

keyfiyyətlə və uzun müddətə saxlanılmasına imkan verəcəkdir.

Qarışıq yem sexinin istehsal gücü ildə 72 min tondur. Bildirilmişdir ki, burada quşlar üçün kökəltmə və yumurtalıq, malqara üçün isə ətlik və südlük istiqamətində 8 çeşiddə yem istehsal olunur. Xammal təminatı yerli istehsal hesabına ödənilir ki, bu da keyfiyyətli məhsul istehsalına imkan verir. Müasir avadanlıqların quraşdırıldığı müəssisədə istehsal prosesi tamamilə avtomatlaşdırılmış qaydada həyata keçirilir, hazır məhsullar müxtəlif ölçülərdə paketlənərək satış mərkəzinə göndərilir.

3 mərtəbəli satış mərkəzində 9 iş otağı, laboratoriya, mətbəx, qazanxana və satış zalı yerləşir. Laboratoriyada quraşdırılan elektrotermostatik inkubator, isitmə və qurutma sobası, mikroskop və digər avadanlıqlar hesabına yüksək məhsuldarlığa malik, xəstəliyə, ziyanvericilərə və yerli iqlim şəraitinə dözümlü toxum sortlarının genofonduna və seleksiyasına nəzarət olunacaqdır. Satış mərkəzində taxılla yanaşı, digər kənd təsərrüfatı bitkiləri toxumlarının, eləcə də dekorativ güllərin, meyvə tinglərinin, gübrələrin, dərman preparatlarının, qarışıq və qüvvəli yemin, kənd təsərrüfatında istifadə olunan alət və avadanlıqların da satışı həyata keçiriləcəkdir.



"Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti üçün Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 2 min hektar əkin sahəsi ayrılmışdır. Uzun müddət əkilməyən həmin torpaqlarda meliorativ tədbirlər həyata keçirilmiş, su təminatı yaxşılaşdırılmış, əkinlərin aqrotexniki qaydalara uyğun aparılması və məhsuldarlığın artırılması üçün 1023 hektar sahədə qapalı suvarma sistemi tikilib istifadəyə verilmişdir. Hazırda digər ərazilərdə də qapalı suvarma şəbəkələrinin qurulması davam etdirilir. Bu ilin məhsulu üçün yerli şəraitə uyğun "Fatimə", "Qobustan", "Qualiti" və "Bezost" taxıl sortları əkilmişdir.





Bildirilmişdir ki, əkin işlərinin aparılması üçün cəmiyyətə 38 adda 87 texnika və texnoloji avadanlıq alınmışdır. Hazırda istifadə olunan 6 kombayn, 5 traktor, hər birinin tutumu 10 ton olan 4 yük maşını, 5 toxumsəpən, kotan və dırmıqlar, 5 gübrəsəpən, 5 toxumtəmizləyən, eləcə də digər maşın və avadanlıqlar yüksək iş əmsalına malikdir.

Ali Məclisin Sədri keyfiyyətli toxum sortlarının yetişdirilməsi, bazarın qorunması, toxuma və qüvvəli yemə olan tələbatın yerli istehsal hesabına ödənilməsi, aid qurumlarla birlikdə məhsuldar toxum sortlarından istifadə ilə bağlı maarifləndirici tədbirlərin həyata keçirilməsi barədə tapşırıqlar vermişdir.

* * *

Toxumçuluğun inkişafı bitki genofondunun qorunub saxlanılması və ərzaq təhlükəsizliyinin təmin olunmasının əsas şərtlərindəndir. Digər bir tərəfdən keyfiyyətli toxum istehsalı həm də əhalinin sağlamlığının qorunmasına xidmət edir. Ali Məclis Sədrinin diqqət və qayğısı ilə muxtar respublikada toxum bazarı düzgün təhlil olunur, tələbat öyrənilir, bu sahə üzrə mütəxəssislər hazırlanır. Bütün bunlar bir daha təsdiq edir ki, "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması və fəaliyyətinin təşkili əkinçiliyin inkişafı və ərzaq təhlükəsizliyinin təmin olunması ilə yanaşı, həm də keyfiyyətli məhsul istehsalı və əhalinin sağlamlığının qorunması baxımından mühüm əhəmiyyətə malikdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda təhsil alan əcnəbi tələbələrə ərzaq payı verilib

*Aprelin 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tapşırığı ilə muxtar respublikada təhsil alan və dünyada yayılmış koronavirus pandemiyasına görə ölkələrinə gedə bilməyən 164 əcnəbi tələbəyə biraylıq ərzaq payı təqdim olunmuşdur.*

Naxçıvan Dövlət Universitetində bu münasibətlə tədbir keçirilmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin köməkçisi Seymur Talıbov tədbirdə çıxış edərək demişdir ki, dünyada pandemiya elan olunan virusun Naxçıvan Muxtar Respublikasında yayılmasının qarşısının alınması üçün tədbirlər görülür. Bununla bağlı qabaqlayıcı tibbi-profilaktik və dezinfeksiya işləri aparılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisində bu məsələ ilə bağlı müşavirə keçirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Fərmanına əsasən Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə bu gün muxtar respublikada təhsil alan və dünyada yayılmış koronavirus pandemiyasına görə ölkələrinə gedə bilməyən tələbələrə biraylıq ərzaq payı təqdim olunur.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirib ki, muxtar respublikanın ali təhsil müəssisələri hər zaman Ali Məclis Sədrinin diqqət və qayğısı ilə əhatə olunub. Görülən işlərin nəticəsidir ki, muxtar respublikada təhsil almaq istəyən əcnəbi tələbələrin sayı ilbəil artır. Bütün ali təhsil müəssisələrinin tədris korpuslarında və tələbə yataqxanalarında dezinfeksiya işlərinin aparılması, xüsusilə də əcnəbi tələbələrin qayğı ilə əhatə olunması onlara göstərilən diqqətin daha bir ifadəsidir. Buna görə də bütün ali təhsil müəssisələrinin müəllim-tələbə heyəti adından Ali Məclis Sədrinə minnətdarlığımızı bildiririk.



Türkiyəli tələbə Hayal Ünkazan, iranlı tələbə Mirəli Hüseyni, Banqladeşdən olan tələbə Kharus Zaman, Koreyadan olan tələbə Dosing Kim və nigeriyalı tələbə Olaboye David Lekan göstərilən qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq ediblər.

Sonra muxtar respublikanın ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələrə biraylıq ərzaq payı təqdim edilib.

**"Şərq qapısı"**

## Naxçıvan Dövlət Universitetində keçirilən tədbir Türkiyə mətbuatında geniş işıqlandırılıb




Naxçıvanda təhsil alan əcnəbi tələbələrə ərzaq payının verilməsi Türkiyə mətbuatında geniş işıqlandırılıb. Bu xəbəri onlarla qəzet və informasiya portalı yayımlayıb.

Naxçıvanda təhsil alan əcnəbi tələbələrə ərzaq payının verilməsi ilə bağlı xəbərə Türkiyənin *igdir15temmuzgazetesi.com, yesiligdir.com, konyaekspres.com, ardahanhaber.com, gazetepusula.net, karsmedyasi.com, narinkalegazetesi.net, igdirim76.com, agrihurses.net, kimlikhaber.com, serhatbirikim.com.tr* və *gazetekars.com* sayt və qəzetlərində geniş yer verilib.

Dərc olunmuş materiallarda bildirilir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə muxtar respublikada təhsil alan və dünyada yayılmış koronavirus pandemiyasına görə ölkələrinə gedə bilməyən 164 əcnəbi tələbəyə biraylıq ərzaq payı təqdim olunub.

Naxçıvan Dövlət Universitetində bu münasibətlə keçirilən tədbiri yüksək qiymətləndirən qardaş ölkə mətbuatı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin köməkçisi Seymur Talıbovun tədbirdə səsləndirdiyi fikirlərə geniş yer ayırıb və oxucuları ilə bölüşüb.

Türkiyəli jurnalistlər Naxçıvanda atılan bu addımın böyük humanistlik nümunəsi olduğunu xüsusi vurğulayıblar.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda dünyada yayılmış pandemiyaya qarşı görülən işlər yüksək qiymətləndirilir

Muxtar respublikada dünyada pandemiya elan olunmuş virusa qarşı aparılan mübarizə ölkə mediasında yüksək qiymətləndirilir. *Ayna.az* saytında bu barədə material yerləşdirilmişdir. Müəllif Rumiyyə Miraslan yazıda Azərbaycanda paytaxt və bölgələr üzrə koronavirus (COVID-19) infeksiyasına yoluxma statistikasını diqqətə çatdıraraq ən riskli bölgələrdən olan Naxçıvan Muxtar Respublikasında koronavirusa yoluxma faktının ilk günlər qeydə alınmadığı, virusun yayıldığı ölkələrlə sərhəddə yerləşməsinə baxmayaraq, Naxçıvanda virusun daha sonra aşkarlandığını bildirir.

Yazıda məsələ ilə bağlı filologiya üzrə fəlsəfə doktoru, folklorşünas Əpoş Vəliyevin fikirləri verilmişdir. Həmin hissəni təqdim edirik: "Hər gün sərhədlərindən yüzlərlə insanın keçdiyi Naxçıvanda yoluxmanın çox az sayda qeydə alınmasının səbəbi çox sadədir. Artıq uzun illərdir ki,

*Ardı 4-cü səhifədə*

insanlar bütün qayda-qanunlara tabe olur, küçə və parklar, binaların həyəti hər gün təmizləyici texnika ilə təmizlənir, zibillər küçələrdə qalaqlanmır, yağışdan sonra üfunət iyi verən gölməçələr yaranmır. Hər il iməcilik edilərək minlərlə ağac əkilir, yaşıllıq zolaqları salınır. Binaların həyətində insanların istirahəti üçün nəzərdə tutulan boş ərazilərdə hündürmərtəbəli bina tikilmir, sakinlərin istirahəti üçün park salınır. Marşrut avtobusları elə intervalla hərəkət edir ki, sıxlıq yaranmır.

Valideynlərim və bir çox yaxın qohumlarım hazırda Naxçıvanda yaşayırlar. Koronavirus ölkəmizdə yayılmasaydı, martın 25-də Naxçıvana yola düşəcək, qardaşım üçün 28 martda toy edəcəkdik. Amma koronavirusun ölkəmizdə yayılması planımızı pozdu, qardaşımın toyu təxirə salındı. Ailəmi Naxçıvana göndərmək istəsəm də, mümkün olmadı. Əslində, Naxçıvandakı qayda-qanunun və təmizliyin şahidi olduğumdan, ailəmin gedərək karantin müddəti bitənə kimi orada qalmasını istəyirdim. Hər gün Naxçıvandakı qohumlarımızla əlaqə saxlayırıq. Onlardan öyrəndiyimə görə, Naxçıvanda bütün idarə, qurum və təşkilatlar verilən bütün tapşırıqlara ciddi şəkildə əməl edir.

Koronavirus təhlükəsi başlayandan Naxçıvanda hər gün bütün küçələr, binaların girişi, işləməsi zəruri olan market və apteklərin içərisi və qarşısı ciddi şəkildə dezinfeksiya olunur. Heç bir kafe, restoran, çayxana gizli fəaliyyət göstərmir, marketlər daha çox evə çatdırma sifarişi qəbul edir. İnsanlar zərurət yaranmadıqca evdən çıxmırlar. Üstəlik, tənha və 65 yaşdan yuxarı insanlara evində xidmət göstərilir. Və ən əsası, görülən təxirəsalınmaz, zəruri tədbirlər reklam üçün, çəkiliş üçün edilmir, publikaya oynanılmır, insanların yoluxmaması, sağlam olması üçün edilir".

*"Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası – 25 il*

## "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası müasir maddi-texniki bazası və yüksək döyüş qabiliyyəti ilə seçilir

***Ölkəmizdə Daxili Qoşunların formalaşması və inkişafı ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin diqqət və qayğısı ilə Daxili Qoşunlar böyük inkişaf yolu keçmiş, hərbi hissələrin müasir standartlar səviyyəsində qurulması istiqamətində tədbirlər görülmüş, bu sahənin fəaliyyətini tənzimləyən hüquqi baza yaradılmışdır. 1994-cü il fevralın 8-də qəbul olunmuş "Daxili Qoşunların statusu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə Daxili Qoşunların əsas funksiyaları, vəzifələri və fəaliyyət prinsipləri müəyyən edilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin mühüm tərkib hissəsi olan Daxili Qoşunların təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilir, bu sahənin maddi-texniki bazası getdikcə daha da gücləndirilir.***



1995-ci il aprelin 10-da Daxili Qoşunların Naxçıvandakı "N" saylı taboru, 2002-ci ildə taborun bazasında Daxili Qoşunların Naxçıvan Alayı, 2014-cü ildə isə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası yaradılmışdır. Əlahiddə Əməliyyat Briqadası yarandığı vaxtdan bu günədək yerləşdiyi mühüm bölgədə qarşısına qoyulan vəzifələri layiqincə yerinə yetirmiş, ictimai asayişin və təhlükəsizliyin qorunmasında, kütləvi tədbirlər zamanı ictimai qaydanın təmin edilməsində zəngin təcrübə toplamış, təqdirəlayiq xidmət yolu keçərək qarşısına qoyulan tapşırıqların öhdəsindən layaqətlə gəlmişdir.

Naxçıvan Muxtar Respublikasında sabitlik, təhlükəsizlik, inkişaf və yüksək rifah dayanıqlı xarakter almışdır. Ordu quruculuğu sahəsində aparılan məqsədyönlü islahatlar və mühüm əhəmiyyətə malik dövlət proqramlarının reallaşdırılması nəticəsində muxtar respublikada bütün hərbi hissələr yüksək standartlar səviyyəsində təchiz olunmuş, Naxçıvan ordusu regionun ən güclü ordularından birinə çevrilmişdir. Muxtar respublikada Silahlı Qüvvələrin digər birləşmə və bölmələri kimi, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının da xidməti-döyüş fəaliyyətinin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır, hərbi hissənin maddi-texniki bazası ilbəil gücləndirilir, hərbi qulluqçuların sosial qayğıları tam şəkildə aradan qaldırılır. Son illər ərzində briqadanın fəaliyyətinin təşkili, idarə olunması və şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər görülmüş, hərbi hissənin yerləşdiyi ərazidə geniş quruculuq işləri aparılmış, ən müasir infrastruktur və nümunəvi hərbi şəhərcik yaradılmışdır. Briqadanın maddi-texniki bazasının gücləndirilməsi sahəsində mühüm işlər görülərək hərbi hissə müasir texniki, silah-sursat və nəqliyyat vasitələri ilə təmin olunmuş, hərbi qulluqçuların döyüş hazırlığı, fiziki hazırlığı, xidmət şəraiti, sosial müdafiəsi daha da gücləndirilmiş, nizam-intizam və qanunçuluq ciddi şəkildə qorunmuşdur. Son illər zabit-gizir ailələri üçün 60 və 45 mənzildən ibarət iki beşmərtəbəli yaşayış binası istifadəyə verilmişdir. Hazırda hərbi hissənin inkişafı yönündə çoxşaxəli işlər və Şərur rayonu ərazisində yerləşən Əməliyyat Taboru üçün müasir standartlara uyğun hərbi şəhərcik və əsgəri-məişət kompleksinin tikintisi davam etdirilməkdədir. Aparılan islahatlar qarşıya qoyulan xidməti vəzifələrin layiqincə yerinə yetirilməsinə imkan verir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Muxtar respublikada Azərbaycan Respublikası Silahlı Qüvvələrinin digər birləşmə və bölmələri kimi, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının da xidməti döyüş fəaliyyətinin yüksəldilməsi diqqət mərkəzində saxlanılır, hərbi hissənin maddi-texniki bazası ilbəil gücləndirilir. Son illər Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublikada yerləşən birləşmə və hissələrinin birgə taktiki təlimlərdə daxili qoşunların şəxsi heyətinin də iştirakı və verilən tapşırıqların peşəkarlıqla icrası bu hərbi hissədə əldə olunan nailiyyətlərin daha bir ifadəsidir".***

Daxili Qoşunların statusuna uyğun olaraq peşə hazırlığının və keçirilən təlimlərin keyfiyyətinin daim yüksəldilməsi, nümunəvi nizam-intizama nail olunması və muxtar respublikada ictimai sabitliyin qorunması bu gün "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının qarşısında duran əsas vəzifələrdir. Şəxsi heyətin yeni silahlardan istifadə qaydaları üzrə bilik və bacarığı təkmilləşdirilir, müntəzəm olaraq toplantılar, səhra çıxışları keçirilir. Bu gün "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası qarşıya qoyulmuş vəzifələri yerinə yetirməyə qadirdir. Ötən il Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə "Dövlət sərhədi pozulduqda sərhəd axtarışının keçirilməsi" üzrə taktiki və "Sarsılmaz qardaşlıq-2019" devizi altında döyüş atışlı əməliyyat taktiki təlimləri bunu bir daha təsdiq etmişdir. Həmin təlimlərdə aktiv iştirak edən "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası qarşıya qoyulan bütün tapşırıqları uğurla yerinə yetirmişdir.

Taktiki təlimlərdə fəal iştirak edən bir neçə hərbi qulluqçu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən mükafatlandırılmışdır. Hazırda briqadada ciddi nizam-intizam var, burada yüksək mənəvi-psixoloji hazırlığa malik əsgər və zabitlər xidmət edirlər. Bu il briqadanın 2 zabitinin xidməti vəzifə borclarının yerinə yetirilməsində fərqləndiklərinə görə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunmaları Əlahiddə Əməliyyat Briqadasına olan qayğının daha bir ifadəsidir.

Ümummilli lider Heydər Əliyev demişdir: ***"Gərək Daxili Qoşunlarda yüksək vətənpərvərlik ruhu, sağlam münasibətlər olsun".*** "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası öz fəaliyyətini məhz bu istiqamətdə qurur, qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirməyə səy göstərir.

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2020-ci ilin mart ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3466 | 256,5 | 256,5 | 100,0 |
| 2. | Şərur rayonu | 2203 | 156,1 | 156,1 | 100,0 |
| 3. | Babək rayonu | 1916 | 134,8 | 134,8 | 100,0 |
| 4. | Ordubad rayonu | 934 | 66,0 | 66,0 | 100,0 |
| 5. | Culfa rayonu | 789 | 56,2 | 56,2 | 100,0 |
| 6. | Kəngərli rayonu | 606 | 43,6 | 43,6 | 100,0 |
| 7. | Şahbuz rayonu | 378 | 27,6 | 27,6 | 100,0 |
| 8. | Sədərək rayonu | 232 | 16,4 | 16,4 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 15077 | 1356,9 | 1369,6 | 100,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **25601** | **2114,1** | **2126,8** | **100,6** |

**Qeyd:** Mart ayında texniki itki nəzərə alınmaqla daxil olan 25 milyon 601 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 114 min 100 manat olmuş, cəmi 2 milyon 126 min 800 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,6 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2020-ci ilin mart ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Kəngərli rayonu | 1039173 | 104716 | 104726 | 100,0 |
| 2. | Şahbuz rayonu | 761214 | 79779 | 79785 | 100,0 |
| 3. | Naxçıvan şəhəri | 3104530 | 330261 | 330283 | 100,0 |
| 4. | Ordubad rayonu | 1269450 | 129759 | 129766 | 100,0 |
| 5. | Şərur rayonu | 2417280 | 245158 | 245165 | 100,0 |
| 6. | Babək rayonu | 2763350 | 282856 | 282861 | 100,0 |
| 7. | Culfa rayonu | 1344590 | 135562 | 135563 | 100,0 |
| 8. | Sədərək rayonu | 258289 | 25937 | 25937 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 12030378 | 2074670 | 2051172 | 98,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **24988254** | **3408698** | **3385258** | **99,3** |

***Bildiriş***

Talıbov Sadəddin Əli oğlunun adına olan "Kəhriz Resurs Mərkəzi" İctimai Birliyi fəaliyyətini dayandırdığından ləğv olunur.

***İtmişdir***

Quliyev Əkbər Qurban oğlunun adına olan 0201000362 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Babək rayon Cəhri kənd sakini İsmayılov Məmməd Bədir oğlunun adına olan 189[A] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Salayev Qorxmaz Müslüm oğlunun adına olan 0200777142 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Nail Əsgərov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 301**